[6]TEHRAN HÜSEYNOVA

# AZƏRBAYCANIN FARS KÖRFƏZI ƏRƏB ÖLKƏLƏRI ƏMƏKDAŞLIQ ŞURASINA ÜZVÜ OLAN DÖVLƏTLƏRLƏ (FKƏDƏŞ) TICARƏT-IQTISADI ƏLAQƏLƏRI.

*Müstəqilliyini yeni bərpa etmiş Azərbaycan Respublikası xarici siyasət kursunu görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin rəhbərliyi altında düzgün müəyyənləşdirdi. Dünya ölkələri ilə tarazlaşdırılmış xarici siyasət yeridən ümummilli lider Asiya qitəsinin Yaxın və Orta Şərq ölkələri ilə münasibətlərə xüsusi əhəmiyyət verirdi. FKƏDƏŞ üzvləri olan altı ərəb ölkəsinin – Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Oman sultanlığı, Qətər, Küveyt və Bəhreyn dövlətlərinin müsəlman ölkələri olması, dünya siyasətində mühüm yer tutması, zəngin neft və qaz sərvətlərinə malik olması, dünya bazarlarında güclü mövqe tutması Azərbaycanın Yaxın və Orta Şərq dövlətləri ilə münasibətlərinin mahiyyətini müəyyənləşdirən əsas amillərdir.*

*Məqalədə Azərbaycan Respublikasının Fars körfəzi dövlətləri (FKƏDƏŞ) Səudiyyə Ərəbistanı, Küveyt, Qətər, Oman, BƏƏ, Bəhreyn ilə ticarət-iqtisadi əlaqələrin tarixi və inkişaf perspektivləri araşdırılmışdır.*

Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasında, heç şübhəsiz, iqtisadi inkişaf və iqtisadi əlaqələr durur. Azərbaycan dünya dövlətləri ilə ticarət və iqtisadi əlaqələrə xüsusi diqqət yetirir. Bu əlaqələrdə FKƏDƏŞ ölkələrinin özünəməxsus yeri və rolu vardır. FKƏDƏŞ üzvləri də Azərbaycan kimi zəngin neft və qaz ehtiyatlarına malikdir. Bu da iqtisadi əlaqələrin inkişafında bir növ tarazlığı tənzim edir.

Dünya dövlətləri ilə neft sahəsində əməkdaşlıq etmək Azərbaycana iqtisadi cəhətdən əlverişlidir. Belə ki, xarici ölkələr neft sahəsinə külli miqdarda investisiya qoydu, respublikaya yeni texnika və texnologiya gətirilməsi ilə bu sahədə əməkdaşlığı genişləndirdi, yeni iş yerləri açıldı. Azərbaycana dünyanın ən nüfuzlu kompaniyaları ilə kifayət qədər sıx əlaqələr yaratmaq imkanı meydana gəldi. Dünya ölkələrini təmsil edən kompaniyaların fəaliyyətə başlaması hər iki tərəfin mənafeyinə xidmət etdi. İmzalanmış müqavilələr isə heç şübhəsiz, Azərbaycana üstünlüklər gətirir. Bu da qarşılıqlı faydalı əməkdaşlıq və Azərbaycanın bir sıra iqtisadi problemlərinin həll edilməsi üçün verilən yardım kimi qiymətləndirilə bilər.

FKƏDƏŞ üzvü olan Səudiyyə Ərəbistanı XX əsrin 90-cı illərindən başlayaraq Azərbaycanla neft sənayesi sahəsində əməkdaşlıq etmək arzusunda oldu. Bu səbəbdən Səudiyyə Ərəbistanı nümayəndələrini tanışlıq üçün Azərbaycana göndərdi. Krallığa məxsus olan «Delta Oyl» neft şirkəti əməli iş görmək üçün bu sahədə fəaliyyətə keçdi.

«Delta Oyl» şirkətinin prezidenti Bədr əl-Bayn 1992-ci ildə Azərbaycana səfəri zamanı ən iri neft kəmərlərinin tikintisində maraqlı olduğunu göstərdi. Bundan əlavə, prezident Azərbaycan iqtisadiyyatının digər sahələrinə investisiya qoymağa hazır olduğunu da qeyd etdi.(16.) ABŞ-la əməkdaşlıq edən «Delta Oyl» kompaniyası «Yunokal» kompaniyası ilə birləşərək «Delta İnterneşnl» kompaniyasını yaratdı və birgə fəaliyyətə başladı.

1993-cü ilin oktyabr ayında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev həmin şirkətlərin rəhbərlərini qəbul etdi. Bu iki iri neft şirkəti tərəfdaş olduğundan birgə layihələr barədə prezidentə məlumat verdilər. «Delta Oyl» şirkətinin prezidenti Bədr əl-Əyban

---

[6] Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı.

Səudiyyə Ərəbistanının Azərbaycanla ikitərəfli, müştərək layihələrin həyata keçirilməsində maraqlı olduğunu bildirdi. Onun sözlərinə görə, «Delta Oyl»un Azərbaycana sərmayə qoyması Səudiyyə Ərəbistanının digər şirkətlərinin də bu ölkəyə marağını xeyli artırmışdı.(1.)

1994-cü il iyul ayının 9-da Heydər Əliyev böyük neft ölkəsi olan Səudiyyə Ərəbistanında səfərdə olarkən səudiyyəli iş adamlarını Azərbaycana dəvət etdi, neft sənaye sahəsinin inkişafına, yeni neft yataqlarının istismarı sahəsində birgə əməkdaşlığın əhəmiyyətli olduğunu vurğuladı.

Səfər zamanı Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında iqtisadiyyat, ticarət, investisiya, mədəniyət, gənclər və idman sahələrində əməkdaşlığa dair beş saziş imzalandı, səfərin yekunlarına dair bəyanat qəbul edildi.

Həmçinin, həmin illərdə Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə müştərək komissiyanın yaradılması müvafiq sahələrdə ikitərəfli əlaqələrin inkişafına xidmət etdi.

Qeyd etmək lazımdır ki, İlham Əliyev prezident seçildikdən sonra da əsası ümummilli lider Heydər Əliyev tərəfindən düzgün qoyulmuş xarici siyasət strategiyanı davam etdirir və FKƏDƏŞ dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətləri daha da inkişaf etdirir.

Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında mövcud qardaşlıq və dostluq əlaqələri çərçivəsində və 1994-cü il iyulun 10-da Ciddə şəhərində imzalanmış «Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclər sahələrində əməkdaşlıq haqqında baş saziş»in VII maddəsinə uyğun olaraq Azərbaycan-Səudiyyə Ərəbistanı müştərək komissiyasının II iclası 2004-cü il fevralın 14-15-də Ər-Riyad şəhərində keçirildi. Keçirilən görüşdə hazırlıq komissiyalarının yaradılması barədə razılığa gəldilər. Bunlar aşağıdakılardan ibarət idi: 1.Ticarət, iqtisadiyyat və investisiya qoyuluşu sahələrində əməkdaşlıq; 2.Mədəniyyət, İslam işləri, idman sahəsində əməkdaşlıq; 3.elm və texnika sahəsində əməkdaşlıq; 4.İş adamları.

Müştərək komissiyanın iclasında tərəflər iki ölkə arasındakı ticarət dövriyyəsinin artırılması zərurətini vurğuladılar və bunun hər iki ölkənin böyük imkanlarına uyğunlaşdırılması üçün səy göstərilməsi barədə razılığa gəldilər. Azərbaycan tərəfi ticarət əlaqələrinin daha da genişləndirilməsi məqsədilə Səudiyyə Ərəbistanının Bakıda ticarət nümayəndəliyinin açılması istəyini bildirdi. Səudiyyə Ərəbistanı tərəfi bu məsələyə baxılacağını vəd etdi. Tərəflər neft sahəsində mütəmadi fikir mübadiləsi, əlaqələndirmə və əməkdaşlıq məqsədilə müştərək ekspertlər qrupunun yaradılmasına dair razılığa gəldilər. Tərəflər hər iki ölkədə özəl sektor tərəfindən birgə enerji layihələrinin həyata keçirilməsinin təşviqi barədə razılığa gəldilər və s. İclasın sonunda protokol imzalandı. May ayının 11-də isə prezident İlham Əliyev həmin protokolun nəzərə alınması haqqında 218 saylı sərəncam imzaladı. (17.; s.401.)

Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında siyasi münasibətlər yüksək səviyyədə inkişaf etsə də, ölkələr arasında iqtisadi əlaqələr o qədər də güclü inkişaf etməmişdir. Bunu bir neçə səbəblə izah etmək olar. İlk növbədə qeyd etmək lazımdır ki, hər iki ölkənin iqtisadiyyatının əsasını neft istehsalı və ixracı təşkil edir. Digər tərəfdən, iki ölkənin bir-birindən uzaqda olması iqtisadi əməkdaşlığı çətinləşdirir. Lakin bu və ya digər səbəblər Azərbaycanla Səudiyyə Ərəbistanı arasında iqtisadi əlaqələrin hazırki vəziyyətinə haqq qazandırmır. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2005-ci ilin martında Səudiyyə Ərəbistanına üçgünlük səfəri iki dost ölkə arasında iqtisadi əlaqələrin inkişafı naminə bu potensialı hərəkətə gətirmək baxımından faydalı oldu. Dövlət başçısının işgüzar dairələrin nümayəndələri ilə keçirdiyi görüşlərdə belə bir məqam dəfələrlə vurğulandı ki, iki ölkə arasında iqtisadi əlaqələrin inkişaf səviyyəsi siyasi əməkdaşlığın səviyyəsindən xeyli geri qalır. Gö-

rüşlər zamanı əsas diqqət, bir tərəfdən siyasi əməkdaşlığın möhkəmləndirilməsinə, digər tərəfdən isə qarşılıqlı iqtisadi əlaqələrin inkişaf səviyyəsini genişləndirilməsinə yönəldildi. İki ölkə arasında ticarət əlaqələrinin inkişafına gəlincə qeyd etmək lazımdır ki, ticarət dövriyyəsinin həcmi çox kiçikdir.

FKƏDƏŞ-in fəal üzvü olan Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında ticarət əlaqələrinin inkişafı son illərdə göstəriciləri aşağıdakı kimi olmuşdur: (13.)

Cədvəl № 1

| İllər | İdxal (mln. ABŞ doll.) | İxrac (mln. ABŞ doll.) | Ticarət dövriyyəsi (mln. ABŞ doll.) | Saldo |
|---|---|---|---|---|
| 2004 | 0,9 | 0 | 0,9 | - 0,9 |
| 2005 | 1,27 | 0,06 | 1,33 | - 1,21 |
| 2006 | 1,15 | 0,001 | 1,151 | - 1,149 |
| 2007 | 1,37 | 0 | 1,37 | - 1,37 |

Cədvəldən göründüyü kimi, 2004-2007-ci illərdə ixraca nisbətən idxal daha artıq olmuş, ticarət dövriyyəsi də yüksəlmişdir.

Səudiyyə Ərəbistanından Azərbaycana idxalda kənd təsərrüfatı məhsulları (əsasən, qoyun əti və un) və kalsium karbonat məhsulları üstünlük təşkil edir.

FKƏDƏŞ-in digər üzvü olan BƏƏ ilə ticarət-iqtisadi əlaqələri də yüksək səviyyədə olmamışdır. Lakin buna baxmayaraq, iqtisadi sahədə ikitərəfli əlaqələri inkişaf etdirmək üçün nazirlər və ayrı-ayrı iş adamlarının qarşılıqlı səfərləri həyata keçirilmişdir. Səfərlər nəticəsində hər iki tərəf üçün müsbət nəticələr əldə olunmuşdur.

Azərbaycan hökuməti bir sıra sosial-iqtisadi layihələrin həyata keçirilməsi üçün BƏƏ-nin müxtəlif maliyyə institutları ilə fəal iş aparır. Hələ 1996-cı ildə Əbu-Dabi İnkişaf Fondu «Bakı dairəvi avtomobil yolunun yenidən qurulması» layihəsinin reallaşdırılması üçün Azərbaycana 10 mln. ABŞ dolları məbləğində kreditin ayrılması barədə qərar qəbul etdi. Bir neçə il sonra Azərbaycan hökuməti ilə Fond arasında borc sazişi imzalandı.(9.s.402-403). Sazişin imzalanması layihənin maliyyələşdirilməsinə xidmət edirdi.

1997-ci il iyun ayının 9-da Heydər Əliyev BƏƏ-nin «Emireyts» aviasiya şirkətinin prezidenti, şeyx Əhməd İbn Səid Al Məktum başda olmaqla ölkəmizə gəlmiş nümayəndə heyətini qəbul etdi. Heydər Əliyev Azərbaycanla BƏƏ arasında yaranmış iqtisadi əlaqələrin faydalı olduğunu bildirdi və ikitərəfli əməkdaşlığın inkişafından məmnunluğunu ifadə etdi. Nümayəndə heyətinin sədri səfərin iki ölkənin mülki aviasiya təşkilatları arasında əməkdaşlığın inkişafına kömək edəcəyini, bütövlükdə qarşılıqlı faydalı əlaqələrin genişlənməsinə təkan verəcəyini vurğuladı.(2.)

2006-cı il noyabrın 20-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Əbu-Dabidə BƏƏ-nin iqtisadiyyat və planlaşdırma naziri Şeyxa Lübna Al Qasımi, «Consolidated Energy Resources LLC və «Ghobash trading and İnvestments Group» şirkətlərinin rəhbəri, BƏƏ-nin sabiq iqtisadiyyat naziri, Ərəb valyuta fondunun keçmiş sədri Seyid Əhməd Qobaş ilə görüşdü. Həmçinin, BƏƏ-nin paytaxtı Əbu-Dabidə, bu ölkənin ticarət palatasının binasında keçirilən Azərbaycan - BƏƏ biznes forumunda iştirak etdi.

2007-ci il aprelin 10-da İlham Əliyev «Azərbaycan Respublikası hökuməti və BƏƏ Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında» sazişi təsdiq etdi. Sazişə əsasən razılığa gələn tərəflər iki ölkə arasında ticarət, iqtisadi və texniki əməkdaşlığın genişlənməsinə xidmət etməli idi. Bu səbəbdən müştərək komissiyanın təsis edilməsi də nəzərdə tutuldu.

Azərbaycan Respublikası ilə BƏƏ arasında ticarət əlaqələri yüksək səviyyədə inkişaf etməmişdir. Lakin iki ölkə arasında ticarət əlaqələri mövcuddur və məhsul mübadiləsi aparılır. 1997-ci ilin iyununda BƏƏ Dövlət Mülki Aviasiya Departamenti prezidentinin Azər-

baycana səfər etdi. Səfər zamanı Dubay-Bakı hava xəttinin açılışı oldu. Hava xəttinin açılması iki ölkə arasında ticarət əlaqələrinin genişlənməsinə şərait yaratdı.

Belə ki, 1997-ci ildə Azərbaycanla BƏƏ arasında mal dövriyyəsi 42,9 milyon ABŞ dolları təşkil etdiyi halda, 1998-ci ildə 48,6 milyon dollara çatdı. 90-cı illərdə BƏƏ-dən əsasən qida məhsulları, tikinti materialları, avtomobillər, hesablama maşınları idxal olunduğu halda, Azərbaycandan ixrac olunan mallar arasında mis tullantıları, alüminium, maşın avadanlıqları, maqnit lentləri və s. üstünlük təşkil etdi.(10.s.402)

1997-1999-cu illərdə Azərbaycanla BƏƏ arasında idxal və ixracın göstəricisi aşağıdakı kimi olmuşdur: (8.)

Cədvəl 2

| İl | Ümumi mal dövriyyəsi (mln. ABŞ dolları ilə) | İdxal (mln. ABŞ dolları ilə) | İxrac (mln. ABŞ dolları ilə) |
|---|---|---|---|
| 1997 | 42. 9 | 41.9 | 1.0 |
| 1998 | 48.6 | 45.6 | 3.0 |
| 1999 | 21.3 | 12.3 | 9.0 |

Göründüyü kimi, illik idxalın ən yüksək göstəricisi 1998-ci ildə, illik ixracın ən yüksək göstəricisi isə 1999-cu ildə olmuşdur.

Azərbaycan ilə BƏƏ arasında ticarət dövriyyəsinin həcmi 2006-cı ildə 200 milyon, 2007-ci ildə 240 milyon ABŞ dolları həcmində olmuşdur.

2004-2007-ci illərdə Azərbaycan Respublikası ilə BƏƏ arasında ticarət əlaqələrinin inkişafına dair göstəricilər aşağıdakı kimi olmuşdur. (14.)

Cədvəl 3

| İllər | İdxal (mln. ABŞ doll.) | İxrac (mln. ABŞ doll.) | Ticarət dövriyyəsi (mln. ABŞ doll.) | Saldo |
|---|---|---|---|---|
| 2004 | 31,16 | 8,05 | 39,21 | -23,11 |
| 2005 | 33,15 | 15,43 | 48,58 | - 17,72 |
| 2006 | 37,78 | 11,62 | 49,4 | - 26,16 |
| 2007 | 50,04 | 4,7 | 54,74 | - 45,34 |

Cədvəldən göründüyü kimi, illik idxalda ən yüksək göstərici 2007-ci ildə, illik ixracda ən yüksək göstərici 2005-ci ildə olmuşdur. Ticarət dövriyyəsi isə 2007-ci ildə üstünlük təşkil etmişdir.

Onu da qeyd edək ki, BƏƏ-dən Azərbaycan Respublikasına idxalda poliefirlər, kondisionerlər və havanın qurğuları hissələri, yer və tunelqazan maşınların hissələri, modul tipli elektrik stansiyaları üstünlük təşkil etmişdir.

Azərbaycan Respublikasından BƏƏ-yə ixracda isə alimünium ərintiləri, dizel yanacağı, meşə fındığı, turbovintli mühərriklər, minik avtomobilləri, neft-qaz buruqlarının qazılması üçün borular üstünlük təşkil etmişdir.

2006-cı il noyabrın 20-də Əbu-Dabi şəhərində imzalanmış «Azərbaycan Respublikası hökuməti və BƏƏ hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında» Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 2008-ci il mayın 21-də № 2830 tarixli sərəncam verdi. Sərəncamda komissiyanın həmsədri, komissiyanın üzvləri və müəyyənləşmiş tərkibi barədə BƏƏ tərəfinə bildiriş göndərilməsi göstərilirdi. (3.)

Ümumiyyətlə, Azərbaycan Respublikası ilə BƏƏ arasında ticarət-iqtisadi münasibətləri özünəməxsus şəkildə inkişaf edib və hər iki tərəf üçün müsbət nəticə verib.

Azərbaycan Respublikası ilə FKƏDƏŞ üzvü olan Qətər dövləti arasında ticarət və iqtisadi əlaqələrin inkişafı 2000-ci ildən sonra yüksəlmişdir.

2000-ci il may ayının 16-da Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Qətər dövlətinin nəqliyyat və kommunikasiya naziri Şeyx Əhməd bin Nasir bin Fəlih əl-Təni başda olmaqla bu ölkənin nümayəndə heyətini qəbul etdi. Görüş səmimi və qarşılıqlı anlaşma şəraitində keçdi, ikitərəfli münasibətlərin inkişafına kömək etdi. (11.s. 86)

Azərbaycan Respublikasının Milli Məclisi 2005-ci il martın 4-də Azərbaycan Respublikası hökuməti və Qətər dövləti hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında sazişin təsdiq edilməsi barədə № 845 – II Q qanun qəbul etdi. Sazişdə tərəflərin müvafiq qanun və qaydalarına uyğun olaraq bərabərlik və qarşılıqlı fayda əsasında sənaye, enerji, kənd təsərrüfatı, kommunikasiya, nəqliyyat, tikinti, əmək, turizm və texniki əməkdaşlıq sahələrində əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsi arzusu ilə aşağıdakılar barədə razılığa gəlinirdi: razılığa gələn tərəflər müvafiq qanun və qaydalarına uyğun olaraq bərabərlik və qarşılıqlı fayda əsasında sənaye, enerji, kənd təsərrüfatı, kommunikasiya, nəqliyyat, tikinti, əmək, turizm və digər sektorlar kimi iqtisadi, ticarət və texniki sahələrdə bir-biri ilə əməkdaşlıq edəcəklər (maddə 1), tərəflər öz dövlətlərində qüvvədə olan qanun və qaydalara uyğun olaraq öz aralarında ticarət əlaqələrinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün bir-birinə münasibətdə ən əlverişli rejim prinsipini tətbiq edəcəklər... (maddə 2) və s. (4. s.207-209)

2007-ci il avqustun 28-də Qətər dövlətinin əmiri Şeyx Həməd bin Xəlifə Al Tani Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası ilə Qətərin Ticarət və Sənaye Palatası arasında Müştərək Biznes Şurasının (MBŞ) təsis edilməsi barədə sazişi və palatalar arasında Anlaşma memorandumunu imzalandı. İki ölkə arasında hava daşımalarına dair və gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında və iki dövlət arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında saziş də imzalandı.

Ümumiyyətlə, Azərbaycan Respublikası ilə Qətər dövləti arasında iqtisadi əlaqələr çox zəif inkişaf etmişdir.

FKƏDƏŞ-in üzvü olan Küveyt dövləti ilə Azərbaycan Respublikası arasında iqtisadi əlaqələr sahəsində uğurla əməkdaşlıq edir.

Məlum olduğu kimi, Küveyt təkcə inkişafını təmin etməklə kifayətlənmir, neft ixracından əldə etdiyi gəlirin bir hissəsini ərəb-müsəlman həmrəyliyinin təzahürü kimi güzəştli kredit və təmənnasız texniki yardım şəklində müsəlman ölkələrinə verir. 1971-ci ildə yaradılmış Küveyt İnkişaf Fondu bu məqsədə xidmət edir. Fondun ayırdığı kreditlər əsasən infrastrukturun yaradılması və təkmilləşdirilməsi ilə bağlı layihələrə (avtomobil yolları, körpülər, aeroportlar, elektrik şəbəkəsi, su təchizatı və s.) ayrılır. Fondun nümayəndə heyəti 1996-cı ilin yanvarında Azərbaycanda səfərdə oldu. Aparılmış danışıqlar nəticəsində Bakı dairəvi avtomobil yolunun çəkilişi üçün layihənin hazırlanmasına 500 min dollar məbləğində texniki yardım etməyi qərar aldı. Küveyt həm də bank işində kifayət qədər təcrübəyə malikdir. Ölkənin mərkəzi bankında - Mərkəzi (Milli) bankda Azərbaycan nümayəndə heyətinə bankın strukturu və fəaliyyəti barədə məlumat verildi. Küveyt Milli Bankının rəhbərliyi 10 nəfər azərbaycanlı bank işçisinin ixtisasının artırılması ilə bağlı maliyyə xərclərini öz üzərinə götürməyə hazır olduğunu bildirdi.(12.)

Küveyt ilə Azərbaycan arasında ticarət əlaqələri zəif inkişaf etmişdir. 2005-2007-ci illərdə Azərbaycan Respublikası ilə Küveyt arasında ticarət əlaqələrinin həcmi aşağıdakı kimi olmuşdur.(15.)

Cədvəl № 4

| İllər | İdxal (mln. ABŞ doll.) | İxrac (mln. ABŞ doll.) | Ticarət dövriyyəsi (mln. ABŞ doll.) | Saldo |
|---|---|---|---|---|
| 2005 | 0,2 | 0 | 0,2 | - 0,2 |
| 2006 | 0,005 | 0,002 | 0,007 | - 0,003 |

| | | | | |
|---|---|---|---|---|
| 2007 | 0,03 | 0 | 0,03 | - 0,03 |

Küveytdən Azərbaycan Respublikasına idxalda əsasən qara metaldan yivli məmulatlar üstünlük təşkil etmişdir.

2009-cu il fevral ayının 10-11-də Azərbaycan respublikasının prezidenti İlham Əliyev Küveytdə rəsmi səfərdə oldu. Səfər çərçivəsində belə müəyyən olundu ki, iki ölkə arasında qarşılıqlı iqtisadi-ticarət əlaqələri mövcud potensiala cavab vermir və bu əlaqələrin genişləndirilməsi üçün konkret tədbirlərin görülməsi zəruridir. Söhbət zamanı qarşılıqlı investisiyaların qoyulması, birgə müəssisələrin yaradılması və digər konkret istiqamətlərdə işlərin görülməsirnin vacibliyi vurğulandı və əmkdaşlığın genişlənəcəyinə əminlik ifadə olundu. (5.)

Azərbaycan Respublikasının FKƏDƏŞ-in digər üzvləri olan Oman sultanlığı və Bəhreyn dövləti ilə ticarət və iqtisadi əməkdaşlığı da zəif də olsa mövcuddur. Bu sahədə qarşılıqlı səfərlər həyata keçirilməkdədir.

2008-ci il yanvar ayının 21-də İlham Əliyev Bəhreyn Beynəlxalq İnvestisiya Bankının və Al Fahim qrupunun sədri Səid Abdul Cəlil Məhəmməd Al Fahimi qəbul etdi. Görüşdə Bəhreyn bankının Azərbaycan bankları ilə əməkdaşlığı, Bəhreyn Beynəlxalq investisiya Bankının ölkəmizdə həyata keçirilən və perspektivdə nəzərdə tutulan investisiya layihələrində iştirakı ilə bağlı fikir mübadiləsi aparıldı.(6.)

İlham Əliyev 2008-ci il 29 aprel tarixində Azərbaycan Respublikası ilə Oman sultanlığı arasında Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması üzrə ikitərəfli razılaşmanı imzalamaq səlahiyyətinin verilməsi barədə 2781 saylı sərəncam verdi.(7.)

Beləliklə, aparılan araşdırmadan aydın olur ki, Azərbaycan Respublikası ilə FKƏDƏŞ-ə üzv olan dövlətlər arasında iqtisadi və ticarət əlaqələri lazımi səviyyədə inkişaf etməmişdir. Lakin bu sahədə əməkdaşlığı genişləndirmək istiqamətində intensiv addımlar atılır. Lakin Azərbaycanın FKƏDƏŞ dövlətləri ilə iqtisadi və ticarət sahəsində əməkdaşlığı bununla bitmir. Azərbaycan Respublikası altı ərəb dövləti ilə İİB və İƏT çərçivəsində də əməkdaşlığı inkişaf etdirməkdədir.

### *ƏDƏBIYYAT*

1. Azərbaycan beynəlxalq aləmdə. II cild. B., «Şuşa» nəşriyyatı, 1997, s.283-284.
2. Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri: əlaqələr inkişaf edir «Azərbaycan» qəz., 10 iyun 1997, № 117 (1638).
3. «Azərbaycan Respublikası hökuməti və BƏƏ hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında» Azərbaycan Respublikasının prezidentinin sərəncamı. - Azərbaycanın xarici siyasəti. Sənədlər məcmuəsi. 2008. II hissə. Bakı, 2009, s.224.
4. Azərbaycan Respublikası hökuməti və Qətər Dövləti hökuməti arasında iqtisadi, ticarət, və texniki əməkdaşlıq haqqında saziş. - Azərbaycanın xarici siyasəti. Sənədlər məcmuəsi. 2005. II hissə. Bakı, 2009, s. 207-209.
5. Azərbaycan və Küveyt arasında əlaqələr uğurla inkişaf edir. - www.xalqqazeti.com.
6. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Bəhreyn Beynəlxalq İnvestisiya Bankının və Al Fahim qrupunun sədrini qəbul etmişdir. «Azərbaycan» qəz., 22 yanvar 2008-ci il, № 14 (4825); Azərbaycan prezidenti İlham Əliyev Bəhreyn Beynəlxalq İnvestisiya Bankının və Al Fahim qrupunun sədrini qəbul etmişdir. www. Azərtac; Azərbaycan prezidenti İlham Əliyev Bəhreyn Beynəlxalq İnvestisiya Bankının sədrini qəbul edib. / www.trend.news.
7. «Azərbaycan Respublikası ilə Oman sultanlığı arasında Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması üzrə ikitərəfli razılaşma»nı imzalamaq səlahiyyətinin verilməsi

barədə Azərbaycan Respublikasının prezidentinin sərəncamı.- Azərbaycanın xarici siyasəti. Sənədlər məcmuəsi. 2008. II hissə. Bakı, 2009, s.213.
8. Cədvəl "Heydər Əliyev və Şərq. 6-cı cilddə V kitab Türkiyə". Bakı, 2004, s.285-də verilən göstəricilər əsasında tərtib olunmuşdur.
9. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı,2005, s. 402-403.
10. Həsənov Ə. Göst. əsəri, s. 402, 752 s.
11. Əliyev H. Müstəqilliyimiz əbədidir. XXVII kitab. Aprel 2000-iyun 2000. B., Azərnəşr, 2009, s. 86.
12 Küveyt görüşləri. // «Azərbaycan» qəz., 15 may 1996, № 91 (1369).
13. Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika komitəsinin məlumatı 2004-2007.
14. Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika komitəsinin məlumatı 2004-2007.
15. Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika komitəsinin məlumatı 2005-2007.
16. «Yunokal» təklif edir. «Azərbaycan» qəz., //(10 noyabr 1992, № 34 (477); Ali Sovetdə qəbul)// «Azərbaycan» qəz., 10 noyabr 1992, № 34 (477).
17. 2004-cü il fevralın 15-də Ər-Riyad şəhərində imzalanmış «Azərbaycan Respublikası – Səudiyyə Ərəbistanı Krallığı Müştərək Komissiyasının II iclasının Protokolu»nun nəzərə alınması haqqında Azərbaycan Respublikası prezidentinin sərəncamı. – Azərbaycanın xarici siyasəti. Sənədlər məcmuəsi. 2004. II hissə. Bakı, 2009, s. 253. 1015 s.; Azərbaycan Respublikası – Səudiyyə Ərəbistanı Krallığı Müştərək Komissiyasının II İclasının protokolu. – Azərbaycanın xarici siyasəti. Sənədlər məcmuəsi. 2004. II hissə. Bakı, 2009, s. 254-256, 1015 s.; Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. s. 401., 752 s.

## ТОРГОВО-ЭКОНОМИЧЕСКИЕ ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ЧЛЕНАМИ СОВЕТА СОТРУДНИЧЕСТВА АРАБСКИХ ГОСУДАРСТВ ПЕРСИДСКОГО ЗАЛИВА (ССАГПЗ)

Торгово-экономические отношения Азербайджанской Республики с шестью арабскими странами ССАГПЗ - Саудовская Аравия, Объединенные Арабские Эмираты, Катар, Кувейт, Оманский Султанат и Бахрейн стали складываться после обретения Азербайджаном в 1991 году независимости. На сегодняшний день с указанными государствами отношения Азербайджана развиваются также в торгово-экономической области.

## TRADE AND ECONOMIC RELATIONS OF AZERBAIJAN WITH THE MEMBERS OF THE CO-OPERATION COUNCIL OF THE ARAB STATES OF THE GULF (GCC)

Trade and economic relations of Azerbaijan with the six Arab countries of the GCC - Saudi Arabia, United Arab Emirates, Qatar, Kuwait, Sultanate of Oman and Bahrain began to take shape after gaining Azerbaijan's independence in 1991. Today, with these states of Azerbaijan relations are developing well in the economic and trade field.

***Rəyçilər: t.e.d.M.Qasımlı, t.e.d.İ.X.Zeynalov.***
***16 aprel 2010-cu il tarixli iclasının qərarı il çapa məsləhət görülmüşdür (protokol №07).***